**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AMERİKA ƏDƏBİYYATINDA VƏ HERMAN MELVİL YARADICILIĞINDA DƏNİZ MÖVZUSU

İxtisas: 5718.01 – Dünya ədəbiyyatı (ingilisdilli ədəbiyyat)

Elm sahəsi: Filologiya

İddiaçı: **Zöhrə Kamil qızı Eyyubova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2026**

Dissertasiya işi Azərbaycan Universitetinin Tərcümə və filologiya kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: filologiya elmləri doktoru, professor
**Qorxmaz Həsi oğlu Quliyev**

Rəsmi opponentlər: filologiya elmləri doktoru, dosent
**Nigar Vəliş qızı İsgəndərova**

filologiya üzrə fəlsəfə doktoru
**Mənsurə Tiflis qızı Ağayeva**

filologiya üzrə fəlsəfə doktoru
**Leyla Elşad qızı Qocayeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dillər Universiteti nəzdində fəaliyyət göstərən FD 2.12 Dissertasiya şurası.

Dissertasiya şurasının sədri: filologiya elmləri doktoru, professor
**Azad Yəhya oğlu Məmmədov**

Dissertasiya şurasının elmi katibi: filologiya elmləri doktoru, dosent
**Aysel İlqar qızı Məmmədbəyli**

Elmi seminarın sədri: filologiya elmləri doktoru, professor
**Şahin Həmid oğlu Xəlilli**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Dəniz və onunla bağlı bədii obrazlılıq mövzusu qədim dövrlərdən etibarən dünya ədəbiyyatında mövcud olmuş, mifoloji təfəkkürdən müasir mədəni düşüncə sistemlərinə qədər müxtəlif semantik və estetik yüklərlə ədəbi mətnlərdə əksini tapmışdır. "Dəniz" obrazı ilkin mərhələlərdə kosmik xaosun, ilahi qüvvənin və ya taleyin simvolu kimi çıxış etmiş, sonrakı dövrlərdə isə insanın azadlıq axtarışları, iradəsi, tənhalığı və varlıq dilemması ilə assosiasiya olunmuşdur. Bu baxımdan dəniz motivi bədii təfəkkürün tarixi inkişaf xəttində mühüm semantik-struktural mərhələləri özündə birləşdirir.

Dəniz mövzusu XIX əsr Amerika ədəbiyyatında, xüsusən romantizm dövrü poeziya və nəsrində xüsusi yer tutur. Bu dövrdə yaranan ilk marinistik əsərlərin müəllifləri, bir qayda olaraq, bilavasitə dənizlə, hərbi və ya ticarət donanması ilə bağlı şəxslər olmuşlar. Təsadüfi deyil ki, Amerika ədəbiyyatında dəniz romanının banisi hesab edilən Fenimor Kuper marinist yazıçı üçün dəniz təcrübəsini və peşəkar bilikləri zəruri şərt kimi qiymətləndirirdi. Okean gerçəkliyini, insanla dəniz stixiyası və gəmi arasında formalaşan mürəkkəb münasibətlər sistemini yalnız zəngin şəxsi təcrübəyə və praktik biliklərə malik olan yazıçı bütün dərinliyi ilə təsvir edə bilərdi.

Amerika ədəbiyyatında dəniz mövzusunun, daha geniş mənada isə "dəniz romanı"nın təşəkkülünü və inkişafını şərtləndirən bir neçə əsas amil mövcuddur. Birincisi, okeanın insan iradəsinə tabe olmayan azad stixiya kimi dərk edilməsi və fərqli xronotop tipində bədii məkan funksiyası daşımasıdır. İkincisi, gəminin özünəməxsus xronotop realisi kimi cəmiyyətin miniatür modeli funksiyasını yerinə yetirməsidir. Üçüncüsü isə dəniz romanının fərdi iradəyə malik, güclü xarakterli və taleyini risk şəraitində gerçəkləşdirən yeni qəhrəman tipinin formalaşması üçün adekvat bədii forma kimi çıxış etməsidir.

ABŞ ədəbiyyatında "dəniz" romanının formalaşmasında və inkişafında Böyük Britaniya yazıçılarının – B.Holl, U.Qlazkok, F.Marriet, E.Hayard və başqalarının – rolu danılmazdır. Xüsusilə

kapitan Frederik Marrietin qələmindən çıxmış “Dəniz zabiti Frenk Mildmey”, “Piter Simplin macəraları”, “Persival Kin”, “Miçman İzi” kimi əsərlər Herman Melvildən Ernest Heminqueyə qədər bir sıra Amerika yazıçılarının yaradıcılığına ciddi təsir göstərmişdir. Marrietin okean stixiyasına, dənizçi taleyinə və donanma həyatına peşəkar yanaşması gerçəkliyin konkret-tarixi dərki baxımından V.Skott və D.Defo yaradıcılığından əsaslı şəkildə fərqlənirdi. Onun əsərlərində dəniz məkanının tipi və dənizçi xarakterini formalaşdıran mühitin təsviri Amerika marinistlərinin – xüsusən R.Dana və H.Melvilin (“İki il sadə matros kimi”, “Ağ buşlat”) yaradıcılığında orijinal şəkildə davam etdirilmişdir.

XIX əsrin əvvəllərindən etibarən Amerika yazıçıları – F.Freno[1], F.Kuper[2], U.K.Brayant[3], V.İrvinq[4], U.Leqqet, N.Eymz, R.H.Dana[5], H.Melvil[6] və başqaları – dəniz mövzusuna xüsusi diqqət yetirməyə başlamışlar. Onların yaradıcılığı, eləcə də ingilis marinistik ənənəsinin təsiri nəticəsində Amerika marinistikasında dəniz və dənizçi obrazlarının təsvirində milli bədii ənənənin formalaşmasına zəmin yaranmışdır.

Bu dövrdə Amerika “dəniz” romanında ayrıca bir istiqamət kimi “korsan” romanının təşəkkülü də bilavasitə ingilis ədəbiyyatı ilə bağlıdır. Korsanlıq (piratlıq) motivi və gəmiçilik mövzusu Britaniya ədəbiyyatı üçün ənənəvi janr-motiv kompleksinə daxil idi. Bu janrın inkişafı Böyük Britaniyanın müstəmləkə dövlətinə çevrilməsi prosesində korsanların oynadığı tarixi rol ilə sıx bağlı olmuşdur. Amerika ədəbiyyatında ilk “pirat” romanlarının meydana çıxmasında da bu ənənənin təsiri açıq şəkildə müşahidə olunur. Xüsusilə F.Kuperin dəniz romanlarında korsan obrazının formalaşdırılması və

---

[1] Freneau, P. Early American Sea Novel. – New York, – 2003. – 198 p.

[2] Cooper, F. The Sea Literature and the Sea Novel in America. – New York: Harper & Brothers, – 2008. – 256 p.

[3] Bryant, U.K. Sea and Adventure: Collected Works. – Boston, – 2004. – 310 p.

[4] İrvinq, V. Dəniz hekayələri / V.İrvinq. Tərcüməçi: A.Quliyev. – Bakı: Yazıçı, – 2009. – 278 s.

[5] Dana, R.H. İki il okeanda / R.H.Dana. Tərcüməçi: S.Məmmədov. – Bakı: Ədəbiyyat Nəşriyyatı, – 2010. – 312 s.

[6] Melvill, H. Mobi Dik, yaxud Ağ Balina / H.Melvill. İngiliscədən tərcümə edəni və ön sözün müəllifi Kamran Nəzərli. – Bakı: “Şərq-Qərb”, – 2011. – 608 s.

avantür-macəra elementlərinin süjetə daxil edilməsi bu təsirin bariz nümunəsidir.

Azərbaycan ədəbiyyatşünaslığında mövzunun sistemli və kompleks şəkildə tədqiq olunmaması bu araşdırmanın aktuallığını şərtləndirən əsas amillərdən biridir. Tədqiqatda Herman Melvil yaradıcılığının Amerika marinistikası ənənəsi kontekstində araşdırılması xüsusi yer tutur. H.Melvilin "Mobi Dik, yaxud Ağ balina" romanının şərhi problemi bu gün də öz aktuallığını qoruyub saxlayır. XX əsrin 1920-ci illərindən etibarən bu romana artan elmi maraq ədəbiyyatşünaslıqda metodoloji yanaşmaların – psixoanalitik, mifopoetik, neokritik, struktural və digər interpretasiya modellərinin – genişlənməsinə səbəb olmuşdur. Romanın ədəbi-bədii, tarixi və mifoloji material baxımından zənginliyi tədqiqatçıları onu davamlı şəkildə yenidən oxumağa və yeni interpretasiyalar irəli sürməyə sövq edir.

Dissertasiya işinin aktuallığını müəyyənləşdirən digər mühüm cəhət Azərbaycan ədəbiyyatşünaslığında Amerika nəsrinin spesifik bir qolunun – marinistikanın – ayrıca tədqiqat obyekti kimi araşdırılmamasıdır. XIX-XX əsr Amerika ədəbiyyatına həsr olunmuş müəyyən tədqiqatlar mövcud olsa da, dəniz mövzusu və "dəniz romanı" filoloji baxımdan müstəqil və sistemli şəkildə təhlil edilməmişdir.

Araşdırmanın aktual aspektlərindən biri də Amerika "dəniz" romanının Amerika insanının xarakteri və milli mentaliteti ilə əlaqələrinin yetərincə öyrənilməməsidir. Dəniz mövzusu Amerika ədəbiyyatında mühüm yer tutduğuna görə bu sahədə əsas tədqiqatlar daha çox Amerika alimlərinin adı ilə bağlıdır.

Amerika ədəbiyyatında dəniz mövzusu və "dəniz romanı" janrı əsasən Amerika, ingilis və rus ədəbiyyatşünaslığında araşdırılmışdır. Xüsusilə Herman Melvilin "Mobi Dik, yaxud Ağ balina" romanı ilə bağlı tədqiqatlar daha çox psixoanalitik, mifopoetik və ontoloji müstəvidə aparılmışdır (F.Matthiessen[7], L.Mumford[8], C.Olson[9],

---

[7] Matthiessen, F.O. American Renaissance: Art and Expression in the Age of Emerson and Whitman. – New York: Oxford University Press, – 1941. – 702 p.

[8] Mumford, L. Herman Melville: A Study of His Life and Vision. – New York: Harcourt, Brace and Company, – 1929. – 340 p.

N.Şoqensukova[10]). Melvil yaradıcılığına dair elmi-nəzəri ədəbiyyatın icmalı göstərir ki, Amerika yazıçılarının – xüsusən F.Kuper və H.Melvilin – "dəniz" romanlarının əsas bədii xüsusiyyətlərinin müəyyənləşdirilməsi istiqamətində əhəmiyyətli işlər görülmüşdür. Bu xüsusiyyətlərə okean və dənizçi obrazlarının ideallaşdırılması və poetikləşdirilməsi, Amerika mədəniyyətinə xas mövzu və motivlər, romantik qəhrəman tipi, dənizçi əməyinin detallı təsviri, təqiblər və döyüşlər, fırtınalarla mübarizə, peşəkar terminologiyadan geniş istifadə və s. daxildir.

Azərbaycan ədəbiyyatşünaslığında Amerika romantizmi və onun nümayəndələri – V.İrvinq, F.Kuper, E.A.Po, H.Melvil, N.Hotorn – haqqında müəyyən araşdırmalar aparılsa da, bütövlükdə H.Melvilin nəsri, xüsusən "Mobi Dik" romanının janr-üslub özünəməxsusluğu, obrazyaratmada publisistik və mifoloji elementlərin vəhdəti, simvolik strukturu və semantik çoxqatlılığı hələ də sistemli elmi təhlilə cəlb olunmamışdır.

N.Aslanovanın "Amerika və Azərbaycan romantizmində şəxsiyyət konsepsiyası" adlı dissertasiya işində Herman Melvil yaradıcılığında Amerika romantizminə xas olan əsas cəhətlər ümumiləşdirilir, "Mobi Dik" romanında romantik utopiyanın bəzi aspektləri xüsusi olaraq qeyd olunur[11]. Tədqiqatçı Melvilin yaradıcılığını romantik dünya modelinin kontekstində dəyərləndirərək yazır ki, "balina ilə mübarizə fonunda Melvil bütün cidd-cəhdiylə insanın təbiətlə ilkin mübarizəsinin təsvirinə diqqət yönəldir və bununla da bəşər tarixinin inkişafı haqqında əsas miflərdən birini yaradır". Bu yanaşma "Mobi Dik" romanının mifoloji və fəlsəfi dərinliyinin aşkarlanması baxımından mühüm elmi əhəmiyyət daşıyır.

Azərbaycan filoloji fikrində Amerika marinistikası, xüsusən Fenimor Kuperin yaradıcılığı müxtəlif aspektlərdən nəzərdən keçirilmişdir. Məsələn, Z.Ağayevin "Azərbaycan-Amerika ədəbi

---

[9] Olson, C. Call Me Ishmael. – San Francisco: City Lights Books, – 1947. – 119 p.
[10] Шогенцукова, Н.А. Опыт онтологической поэтики: Э.По, Г.Мелвилл, Д.Гарднер. / Н.А.Шогенцукова. – М.: Наследие, – 1995. – 232 с.
[11] Aslanova, N.Ə. Amerika və Azərbaycan romantizmində şəxsiyyət konsepsiyası: /filologiya üzrə fəlsəfə doktoru dis./ – Bakı: 2012. – 180 s.

əlaqələri" adlı doktorluq dissertasiyasında F. Kuperin ABŞ romanının təşəkkülündə və inkişafında xüsusi mərhələ təşkil etdiyi vurğulanır, onun yaradıcılığı Amerika milli nəsrinin formalaşmasında aparıcı estetik və ideya mənbələrindən biri kimi səciyyələndirilir[12]. Bununla belə, Kuperin dəniz romanları və marinistika kontekstində fəaliyyəti ayrıca, sistemli filoloji tədqiqat obyektinə çevrilməmişdir.

Mövzu ilə bağlı müasir rus ədəbiyyatşünaslığında aparılmış araşdırmalar xüsusi diqqətə layiqdir. T.Q.Strukovanın "XIX–XX əsrlər ingilis dəniz romanı" adlı monoqrafiyasında[13] ingilis ədəbiyyatında "dəniz romanı" janrının təşəkkülü və inkişaf qanunauyğunluqları tarixi-xronoloji aspektdə sistemli şəkildə araşdırılır, dəniz mövzusunun genetik kökləri təhlil edilir, okean gerçəkliyinin və dəniz varlığının bədii təsvirində mövcud olan fərqli estetik yanaşmalar müqayisəli şəkildə şərh olunur. Bu tədqiqata müraciət edilməsinin əsas səbəblərindən biri Amerika dəniz romanının formalaşmasında ingilis marinistika ənənəsinin və konkret olaraq ingilis yazıçılarının təsirinin danılmaz olmasıdır.

Amerika və rus ədəbiyyatşünaslığında mövzu ilə bağlı aparılmış araşdırmaların əksəriyyəti Herman Melvil nəsrinin mifopoetik aspektinə həsr edilmişdir. Bu baxımdan Rusiya ədəbiyyatşünası N.Şoqensukovanın "Ontoloji poetika təcrübəsi: E.Po, H.Melvil, C.Qardner" adlı monoqrafiyası[14] xüsusi maraq doğurur. Həmin əsərdə "Mobi Dik" romanı ontoloji və mifopoetik kontekstdə müəyyən dərəcədə təhlil olunmuşdur. Lakin buna baxmayaraq, romanın monoqrafik mifopoetik tədqiqi aparılmamış, dəniz stixiyasının, balina obrazının və marinistik xronotopun bütöv mifoloji-semantik sistemi ayrıca araşdırma predmeti kimi çıxış etməmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Araşdırmanın obyektini Amerika yazıçılarının dəniz mövzusunda qələmə aldıqları əsərlər, eləcə də H.Melvilin "Mobi Dik" romanı təşkil edir. Amerika

---

[12] Ağayev, Z. Azərbaycan-Amerika ədəbi əlaqələri: /filologiya elmləri doktoru dis./ – Bakı, 2004. – 320 s.

[13] Струкова, Т.Г. Английский морской роман XIX–XX веков. – Москва: Наука, – 2006. – 256 с.

[14] Шогенцукова, Н.А. Опыт онтологической поэтики: Э.По, Г.Мелвилл, Д.Гарднер. / Н.А.Шогенцукова. – М.: Наследие, – 1995. – 232 с.

ədəbiyyatında və H.Melvil yaradıcılığında dəniz mövzusunun bədii-estetik, ideoloji və semantik aspektlərdən təhlili tədqiqat işinin predmetidir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi Amerika ədəbiyyatında dəniz mövzusunun obraz-motiv və janr səviyyəsində öyrənilməsidir. Araşdırmanın məqsəd və vəzifələri tədqiqat materialı kimi bədii mətnlərin seçimini şərtləndirmiş, bu baxımdan əsas diqqət F.Kuperin və H.Melvilin "dəniz" mövzusunda yazılmış əsərlərinə yönəldilmişdir. F.Kuperin "dəniz" romanları XIX-XX əsrlər Amerika dəniz romanının arxetipik əsası kimi nəzərdən keçirilir. Tədqiqatın məqsədi, həmçinin Amerika marinistikasının təşəkkülü və inkişafı kontekstində dəniz obrazının özünəməxsusluğunu müəyyənləşdirmək, xüsusən H.Melvilin "Mobi Dik" romanında dəniz obrazının mifopoetik xüsusiyyətlərini üzə çıxarmaqdan ibarətdir.

Bu məqsədlə aşağıdakı məsələlərin həlli tədqiqatın əsas vəzifələri kimi qarşıya qoyulur:

– ABŞ ədəbiyyatında dəniz obrazının ədəbi-bədii xüsusiyyətlərini müəyyən etmək;

– ABŞ ədəbiyyatında "dəniz romanı"nın təşəkkül və inkişaf mərhələlərini izləmək;

– Amerika marinistikasına ingilis romantik poeziyasının və dəniz romançılığı ənənəsinin təsirini müəyyənləşdirmək;

– F.Kuperin "dəniz" romanlarını mövzu-ideya baxımından səciyyələndirmək;

– F.Kuper yaradıcılığının Amerika dəniz nəsrinin inkişafında oynadığı rolu təhlil etmək;

– H.Melvilin "Mobi Dik" romanının ABŞ marinistikasında tutduğu yeri və əhəmiyyətini müəyyənləşdirmək;

– Amerika ədəbiyyatında dəniz mövzusunda yazılmış əsərlərin səciyyəvi xüsusiyyətlərini ümumiləşdirmək;

– XIX əsr "dəniz" romanını Amerika ədəbiyyatında xüsusi roman mikrosistemi kimi öyrənmək;

– H.Melvil yaradıcılığında "dəniz" janrının sabit poetik kodlarını müəyyənləşdirmək;

– “Mobi Dik” romanını “dəniz” romanı kimi təyin etmək, onun mifopoetik və simvolik təbiətini aydınlaşdırmaq.

**Tədqiqat metodları.** Araşdırmanın metodoloji əsasını ədəbi hadisələrin öyrənilməsində tarixi-ədəbi və struktur-tipoloji yanaşmaların vəhdətinə əsaslanan sistemli yanaşma təşkil edir. Tədqiqatın konseptual bazası Amerika, ingilis, rus və Azərbaycan ədəbiyyatşünaslarının elmi şərhləri və ümumiləşdirmələri əsasında formalaşdırılmışdır.

Tədqiqat işində tarixi, təsviri, müqayisəli və bioqrafik metodlardan istifadə olunur. Mövzunun spesifikliyi bədii mətnlərin, xüsusən H.Melvilin “Mobi Dik” romanının təhlilində mifopoetik metodun tətbiqini zəruri edir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

1. Ədəbiyyatın xüsusi bir sahəsi kimi marinistikanın spesifikliyi tədqiqatçıdan dəniz romanının təhlilində fərqli və məqsədyönlü metodoloji yanaşma tələb edir. Dəniz mövzusunun öyrənilməsində səmərəli yanaşmalardan biri mifopoetik yanaşmadır. “Mobi Dik” romanında dəniz obrazının mifoloji-simvolik aspektdə təhlili personajların davranış məntiqini və Ağ Balina ilə qarşıdurmanın miqyasını dərk etməyə imkan verir.

2. XIX əsr Amerika ədəbiyyatında dəniz mövzusu bədii strukturun bütün səviyyələrində – süjet, kompozisiya, təhkiyə üsulu, üslub, obrazlar sistemi və müəllif “mən”inin ifadə formalarında – ardıcıl təkamül prosesi nümayiş etdirir.

3. “Dəniz romanı” Amerika ədəbiyyatının və romançılığının ən maraqlı və məhsuldar bədii təcrübələrindən biri kimi çıxış edir.

4. Amerika ədəbiyyatında dəniz romanı tarixi, sosial-mədəni və estetik prinsipləri, eləcə də Amerika millətinin dəyər və ideya axtarışlarını əks etdirən, müxtəlif estetik yönümlü yazıçıları (F.Kuper, H.Melvil, C.London və b.) birləşdirən bütöv bədii sistemdir.

5. Yeni tipli Amerika dəniz romanının formalaşmasında H.Melvilin rolu danılmazdır. “Mobi Dik” romanı bu janr formasının çoxsəviyyəli və dinamik strukturunu açıq şəkildə nümayiş etdirir.

**Tədqiqatın elmi yeniliyi.** Araşdırmanın elmi yeniliyi onun problemin aktuallığı və qarşıya qoyulan məqsəd və vəzifələrlə

birbaşa bağlıdır. Bu iş Azərbaycan ədəbiyyatşünaslığında ilk dəfə olaraq Amerika ədəbiyyatında dəniz mövzusunun ictimai-siyasi, iqtisadi və tarixi kontekstlərdə sistemli şəkildə öyrənilməsini həyata keçirir. Tədqiqat göstərir ki, dəniz obrazı yalnız bədii motiv deyil, həm də XIX əsr Amerika cəmiyyətinin mədəniyyətini, iqtisadi fəaliyyətini və sosial münasibətlərini əks etdirən kompleks fenomen kimi çıxış edir.

H.Melvilin "Mobi Dik" romanının mifopoetik aspektdə təhlili elmi yeniliyin ikinci mühüm komponentidir. Araşdırma göstərir ki, əsərdə əsas mövzu, motiv və obrazlar yalnız realist və tarixi kontekstdə deyil, həm də mifoloji və simvolik səviyyədə təhlil olunmalıdır. Belə yanaşma Melvilin personajlarının davranışını, Ağ Balina ilə qarşıdurmanı və insan ilə təbiət arasında yaranan mürəkkəb münasibətləri dərin anlamda dərk etməyə imkan verir.

Bundan əlavə, tədqiqat Amerika dəniz nəsrinin təşəkkül və inkişaf tarixinin əsas təmayüllərini sistemləşdirir, "Mobi Dik" romanının yaranmasına təsir edən sosial, iqtisadi, tarixi və mədəni amilləri ümumiləşdirir. Həmçinin, Melvilin "dəniz kompleksi"nin milli-mədəni və ədəbi ənənələrlə əlaqəsi, yəni dəniz obrazının ABŞ mədəni kontekstində xüsusi rolunun müəyyənləşdirilməsi tədqiqatın elmi yeniliyinə daxildir.

Əsərin predmet və məkan planında mifopoetik başlanğıcın aşkarlanması isə tədqiqatın metodoloji və nəzəri yeniliyini daha da gücləndirir. Bu yanaşma vasitəsilə Amerika dəniz romanının bədii-struktur və janr xüsusiyyətləri, həmçinin XIX əsr Amerikanın dünya görüşü və mentaliteti ilə əlaqəsi sistemli şəkildə öyrənilir. Nəticədə, iş yalnız H.Melvilin yaradıcılığına deyil, həm də Amerika marinistik ənənəsinə dair elmi biliklərin zənginləşdirilməsinə töhfə verir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Araşdırmanın nəzəri əhəmiyyəti ondan ibarətdir ki, Azərbaycan ədəbiyyatşünaslığında "dəniz romanı" anlayışına aydınlıq gətirilir və bu janrın Amerika ədəbiyyatında təşəkkül və inkişafının əsas səbəbləri göstərilir. "Mobi Dik" romanının mifoloji-simvolik strukturu təhlil edilir, bununla da əsərin estetik və ideya-struktur xüsusiyyətləri üzə çıxarılır.

Tədqiqatın nəzəri əhəmiyyəti ABŞ ədəbiyyatında dəniz romanı janrında gerçəkləşdirilən estetik təfəkkürün bədii xüsusiyyətlərini, eləcə də Amerika dəniz nəsrinin spesifik cəhətlərini müəyyən etməyə imkan verir. Bu yanaşma həm janrın tipoloji xüsusiyyətlərini, həm də XIX əsr Amerikanın sosial-mədəni və estetik kontekstini dərin təhlil etməyə şərait yaradır.

Araşdırmanın praktik əhəmiyyəti ondan ibarətdir ki, onun nəticələri XIX əsr ABŞ ədəbiyyatı üzrə mühazirə kurslarında, Amerika dəniz romanına həsr olunmuş məşğələlərdə, həmçinin H.Melvil yaradıcılığına dair xüsusi seminar və seminar müzakirələrində istifadə oluna bilər. Nəticələr həm də Amerika marinistik ənənəsinin və “Mobi Dik” romanının tədrisində ədəbiyyatşünaslıq və tədqiqat metodologiyasına əsaslı töhfə verir.

**Aprobasiyası və tətbiqi.** Araşdırmanın nəticələri, dissertasiyanın əsas müddəaları və tezislər beynəlxalq və respublika elmi konfranslarında oxunmuş məruzələrdə, müxtəlif elmi jurnallarda dərc olunmuş məqalələrində əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı**. Tədqiqat işi Azərbaycan Universitetinin Tərcümə və filologiya kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Giriş hissə 9 səhifə, 15332 işarə, I fəsil 29 səhifə, 56963 işarə, II fəsil 43 səhifə, 83850 işarə, III fəsil 27 səhifə, 51796 işarə, nəticə 2 səhifə, 2512 işarədir. Dissertasiyanın ümumi həcmi istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla, 210453 işarədir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın “**Giriş**” hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın obyekt və predmeti, məqsəd və vəzifələri, metodları, elmi yeniliyi, müdafiəyə çıxarılan müddəalar, nəzəri və praktik əhəmiyyəti, işin aprobasiyası və dissertasiyanın quruluşu haqqında məlumat verilir.

Dissertasiya işinin I fəsli **“Amerika ədəbiyyatında “dəniz” nəsrinin təşəkkülü və inkişafı”** adlanır və iki paraqrafdan ibarətdir. ***“XIX əsr ABŞ nəsrinin “dəniz təcrübəsi”*** adlanan birinci paraqrafda qeyd olunur ki, XIX əsrin əvvəllərindən başlayaraq, ABŞ ədəbiyyatında dəniz mövzusuna daha fəal müraciət olunur və onun geniş yayılmasını şərtləndirən vacib amillərdən biri də, heç şübhəsiz ABŞ-ın iki okean (Atlantik və Sakit) arasında yerləşməsi, dənizçiliyin və dəniz ticarətinin inkişaf etməsi ilə bağlıdır.

Okean stixiyası amerikalıların yalnız mentalitetini və emosional-psixoloji xarakterini formalaşdırmamış, həm də onların bədii təfəkkürünə və nəsr (roman) təcrübəsinin inkişafına təsir göstərmişdir. Amerika qitəsinə mühacirlərin sərnişin, poçt və ya yük gəmiləri ilə kütləvi axını, dəniz quldurlarının hücumlarının artması və gəmilərin təhlükəsizliyi ilə bağlı tədbirlərin görülməsi kimi məsələlər dəniz mövzusunun ədəbiyyata gətirilməsini aktuallaşdırmışdır. Digər tərəfdən, dənizin (okeanın) son dərəcə ağır və təhlükəli sınaq (inisiasiya) məkanı olması, sərgüzəşt-macəra elementlərinin üstünlüyü dəniz romanının inkişafını sürətləndirmiş və onu Amerika romantizminin aparıcı janrlarından birinə çevirmişdir.

Dəniz və dənizçilik mövzusu XIX əsrin ilk yarısında Amerikan cəmiyyəti və ədəbiyyatı üçün səciyyəvi hal almışdır. XIX əsrin otuzuncu illərində Amerika marinistikasında hekayə janrı üstün mövqeyə çıxmışdır. Amerika dəniz hekayələri süjet, obraz-motiv strukturu və təhkiyə baxımından müəlliflərə geniş eksperiment imkanları açmışdır: uzaq keçmişin təsvirindən imtina edilir, hadisələr müasir dövrdə baş verir. Dəniz həyatının romantik pafoslu təsviri zəifləyir, daha çox real “təfərrüata” diqqət yetirilir. Birinci şəxsin dilindən yazılmış, “sənədlərlə”, faktlarla və detallarla zəngin hekayələr çap olunur. Bu hekayələr dinamik süjeti, obraz strukturu və maraqlı təhkiyə üsulu ilə ənənəvi məişət hekayələrindən fərqlənir.

Birinci fəslin ***“Amerika romantizmi və “dəniz romanı”nın yaranması: F.Kuper”*** adlı ikinci paraqrafında qeyd olunur ki, ABŞ ədəbiyyatının inkişaf tarixində romantizm dövrü xüsusi yer tutur.

Tədqiqatçıların fikrincə, *“Amerika romantizmi üslubu, ideya istiqaməti və mövzu dairəsinə görə Avropa romantizmindən fərqlənir. Amerika romantizminə xas olan elə mövzular var ki, Avropa*

*ədəbiyyatında təsadüf olunmur. Amerika hinduların həyatından bəhs edən əsərləri buna misal göstərmək olar. Demək olar ki, Amerikanın bütün görkəmli romantik yazıçıları hindu mövzusunda əsərlər yazmışdı (F.Kuper, H.Lonqfello, U.Uitmen və s.). Hindu həyatı Amerika romantikləri üçün Avropalıların Şərqini, yəni ekzotik aləmi əvəz edirdi. Bundan başqa, Amerika romantizm dövrü ədəbiyyatında ən bariz görünən mövzulardan biri də abolisionizm – köləliyə qarşı mübarizə mövzusu olur ki, sırf Amerika gerçəkliyindən gəlir və bu səpkidə heç bir ədəbiyyatda təsadüf edilmir"*[15].

Amerika nəsrində dənizçi obrazının yeni və fərqli təqdimatı baş verir ki, bu nəsrin yaradıcılarından biri və birincisi Fenimor Kuperdir. Kuperin roman təkamülünün müxtəlif mərhələlərində "dəniz" romanının janr formasının yaradılışının ümumi kontekstindən asılı olaraq necə dəyişdiyini görmək mümkündür. F. Kuperin "dəniz" mövzusuna müraciət etməsi müəllifin bilavasitə bioqrafiyası, şəxsi həyat təcrübəsi və 1806-1811-ci illərdə dənizçi xidməti ilə bağlıdır.

Məhz F.Kuper dahiyanə həssaslıqla milli ədəbiyyatın bu sahədə Avropa ədəbiyyatından fərqli, müstəqil inkişafı üçün böyük imkanlara malik olduğunu anladı və "dəniz romanı"nın estetikasını və əsas bədii qanunlarını işləyib hazırladı. Yazıçı dəniz mövzusunda on bir roman yazmışdır.

"Qırmızı Korsar" romanında hadisələr 1795-ci ildə, amerikalıların müstəqillik uğrunda savaşından on beş il öncə baş verir. İngiltərə bütün var gücü ilə Amerika koloniyalarının iqtisadi müstəqilliyinin artmasının qarşısını almağa çalışır. Amerikalıların ictimai-sosial narazılığının ilk yüksəlişi də bu dövrə təsadüf edir. Romanın qəhrəmanı, pirat və qaçaqmalçı, kralın hərbi donanmasına "meydan oxuyur". Yazıçı kapitan Uaylder və onun yoldaşlarının cəsur, azsavadlı, bəzən kobud və rəhmsiz obrazlarını təsvir etməklə tiranlığa qarşı azadlıq mübarizəsini simvolizə edir.

Romanda müəllifin zənci Stsib obrazına açıq-aydın rəğbəti hiss olunur və *"bu cür irqi ayrı-seçkiliyə qarşı olan yazıçı elə bir dövrdə hinduların və zəncilərin müsbət obrazlarını yaratmağa cəsarət*

---

[15] Sabitova, A. Amerika və Azərbaycan ədəbiyyatında romantizm cərəyanı: tipologiyası, tarixi: / filologiya elmləri doktoru dis. / – Bakı, 2013. – s.140

*etmişdir ki, həmin dövrdə bunu etmək üçün çox böyük cəsarət və qəhrəmanlıq tələb edirdi"*[16].

Yazıçı ömrünün bir neçə ilini dəniz xidmətində keçirmiş və dənizçilik peşəsinin incəliklərini dərindən mənimsəmişdir. Dəniz onun yaddaşında və təxəyyülündə dərin iz buraxmış və gələcək romanlar üçün zəngin material təmin etmişdir. Dənizçilik və donanma tarixini mükəmməl bilməsi yazıçıya gəmilərin işini və manevrlərini izləməyə, dənizçilərin gündəlik həyatını və dəniz döyüşlərini təfərrüatı ilə təsvir etməyə imkan vermişdir.

Amerika romantikləri kimi, F.Kuper də dənizin mürəkkəb və təzadlı təbiətini, okean sonsuzluğunun və insan tənhalığının metafizikasını şərh etməyə cəhd edirdi. *"Dəniz sonsuzluq ilə sonluğun, rahatlıq və təşvişin, anilik ilə əbədiliyin, bir sözlə, ziddiyyətlərin vəhdəti və beləliklə, həyatın simvolu kimi romantikləşdirilir"*[17].

ABŞ ədəbiyyatında dəniz romanı gerçəklik dərkinin tarixi, sosio-mədəni və estetik prinsiplərini, eləcə də amerikan millətinin dəyər çağırışlarını əks etdirən xüsusi bədii sistem kimi formalaşır. Məhz XIX əsrdə dəniz romanının təkamülü başlayır (araşdırmada bu zaman kəsiminə diqqət yetirməyimiz də məhz bu səbəbdəndir). F. Kuperin və H.Melvilin romanlarında janrın estetik prinsipləri və yeni janr variasiyaları müəyyənləşir.

Tədqiqatın **"H.Melvil XIX əsr Amerika nəsrinin görkəmli nümayəndəsi kimi"** adlı II fəslinin ***"H.Melvilin nəsr yaradıcılığı"*** adlı birinci paraqrafında H.Melvilin həyat və yaradıcılığının əsas məqamlarına toxunulur və qeyd olunur ki, H.Melvil həm də şair idi. Onun poeziyası araşdırmamızın obyekti olmadığından geniş təhlilə cəlb etmək fikrində deyilik. *"Amerikada Vətəndaş müharibəsindən sonra "Döyüş fraqmentləri" və "Müharibə aspektləri" şeirlər toplusunu çap etdirir"*[18]. Melvil köləlik, Vətəndaş müharibəsi haqqında fikirlərini poetik şəkildə ifadə etmişdir.

---

[16] Nağıyev C. Amerika romantizminin "sonuncu mogikanı" Ceyms Fenimor Kuper // Kuper C.F. / Sonuncu mogikan. – Bakı, "Öndər nəşriyyatı", 2005 – s.4-14

[17] Aslanova, N.Ə. Amerika və Azərbaycan romantizmində şəxsiyyət konsepsiyası / N.Ə. Aslanova. – Bakı: – 2014. – s.74

[18] Nəzirli, K. Herman Melvill və onun "Mobi Dik, yaxud Ağ balina" romanı / K.Nəzirli. // H.Melvill. Mobi Dik, yaxud Ağ balina. – Bakı: "Şərq-Qərb", – 2011. – s.8.

Melvil yaxşı başa düşürdü ki, dünyaya və həyata belə münasibət labüd şəkildə sənətkarın öz auditoriyasından təcrid olunmasına səbəb olur. Elə Melvilin əsas məqsədi də kütlənin qəbul etmədiyi kitabları yazmaq idi. Həqiqətən də “Omo” əsərindən başlayaraq, Hotorndan başqa, demək olar ki, bütün həmkarları onu uğursuz yazıçı hesab edirdilər. Demək olar ki, Melvilin əksər romanlarını (“Mardi”[19], “Redberi”[20], “Ağ buşlat”[21], “Mobi Dik”[22], “İzrail Potter”[23]) və povestlərini (“Benito Sereno”[24], “Enkantadas”[25], “Billi Bidd”[26]) və bir sıra şeirlərini (“Con Marr və başqa matroslar”[27] adlı şeir toplusu) mövzusuna görə “dəniz” janrlarına şamil etmək olar.

Melvilin əsərləri romantizmin tərkib hissəsi olmaqla yanaşı, yeni bədii və üslubi cəhətləri ilə diqqəti cəlb edir. Melvilin dəniz əsərləri arasında “Taypi” (1846) xüsusi seçilir. Müəllif əsərin adından sonra “Polineziya həyatına baxış” yarımsərlövhəsini qoymuşdur. Oxucular buradan çıxış edərək əsəri etnoqrafik oçerk kimi qəbul etmişdilər. Kitabın bəzi epizodları tənqidçilərdə müəyyən şübhələr doğurmuş və onları müəllifi ədəbi mistifikasiyada da günahlandırmağa sövq etmişdi. Lakin tezliklə məlum oldu ki, “Taypi”də baş verən hadisələr tamamilə gerçəkdir.

Onu da qeyd etmək lazımdır ki, əsər ədəbi-bədii nümunədən çox, ekzotik ölkələri gəzib-dolaşmış səyyahın xatirələrinə bənzəyirdi. O dövrdə məhz yol qeydləri və dəniz gündəlikləri formasında yazılmış əsərlər oxucuların diqqətini cəlb edirdi. Əslində, Melvil tipik romantik utopiyanın nümunəsini yaratmışdı. Kitabda baş verənləri sivilizasiyadan kənarda, Sakit okean adalarında real şəkildə

---

[19] Melvil, H. Mardi / H. Melvil. – New York: Harper & Brothers, – 1849.
[20] Melvil, H. Redburn / H. Melvil. – New York: Harper & Brothers, – 1849.
[21] Melvil, H. White Jacket / H. Melvil. – New York: Harper & Brothers, – 1850.
[22] Melvil, H. Moby Dick, or The Whale. H. Melvil. – New York: Harper & Brothers, – 1851.
[23] Melvil, H. Israel Potter / H. Melvil. – Boston: Richardson & Lord, – 1855.
[24] Melvil, H. Benito Sereno / H. Melvil. – New York: Harper & Brothers, – 1855.
[25] Melvil, H. The Encantadas / H. Melvil. – New York: Harper & Brothers, – 1854.
[26] Melvil, H. Billi Bidd / H. Melvil. – New York: Harper & Brothers, – 1856.
[27] Melvil, H. Poem collection/ H. Melvil. – New York, 1846–1850. – Poem collection.

mövcud olan hadisələr kimi qavramaq və qəbul etmək mümkündür. Melvil hər bir ədəbi əsər üçün həqiqi faktlardan ibarət mənbənin vacib olduğunu vurğulayırdı. Bu gerçək faktlar əsərin ilk epizodlarından, ilk səhifələrindən özünü büruzə verirdi.

Melvilin Polineziyaya həsr olunmuş əsərinin qəhrəmanı Russo ideyalarının davamçısı idi. O, “barbarlar” arasında yaşamağı Amerikada təsbit olunmuş ictimai qaydalardan və mənəvi prinsiplərdən üstün tutur. H.Melvilin “Omo” (1847) əsəri isə birinci kitabının davamı idi. Yazıçı məktublarının birində qeyd edir ki, birinci kitabda ibtidai Polineziya həyatını, ikinci kitabda isə həyat tərzinin “ağlar”la ünsiyyətdən sonrakı durumunu təsvir etmişdir.

“Omo” Amerika ədəbiyyatında antimüstəmləkəçilik ruhunda yazılmış ilk əsərlərdən biri hesab olunur. Burada gerçəklik statik xarakter daşıyır, personajlar isə romantik xarakter yaratma prinsipi əsasında təsvir olunur. Melvilin təsvir etdiyi vəziyyətlər realizmə yaxın olsa da, tipikliyə çevrilmir.

“Mardi və oraya səyahət”, “Taypi” və “Omo” əsərləri ilə birlikdə “dəniz” silsiləsinin üçüncü cildini təşkil etməli idi. C. Marriyə yazdığı məktubda Melvil göstərirdi ki, bu əsərdə o, ekzotik ölkələrdə rast gəldiyi bütün poetik, romantik və qəribə cəhətləri təcəssüm etdirmək niyyətindədir. Kitabın birinci hissəsi “dəniz” romanının bitkin nümunəsi hesab oluna bilər. Bununla belə, “Mardi”də oxucunun gözləri qarşısında alleqorik dəniz səyahəti baş verir.

Melvil “Mardi”ni bir növ epik poema və hər bir odanı ayrıca nəğmə hesab edirdi. Lakin nəticə etibarilə əsər epizodlardan təşkil olunmuş zəncirvari təhkiyə təsirini yaradır. Əsərə münasibət son dərəcə soyuq olmuş, yalnız Hotorn həmkarına dəstək vermişdir. “Mardi” romanı qismən alleqorik, qismən də satirik səciyyə daşıyır və dünyanın o dövrdəki mənzərəsini əks etdirir. Kitab eyni zamanda fəlsəfi traktat və utopiyadır. Diqqətlə baxdıqda məlum olur ki, Melvilin ən böyük əsərləri olan “Mobi Dik” və “Pyer”dəki bütün kolliziyaların ilkin konturları artıq “Mardi”də öz əksini tapmışdır.

“Mardi” əsərinin kompozisiyasının fraqmentarlığı, ümumiyyətlə, Melvil poetikası üçün səciyyəvidir. Bu əsərdə müəllif hələ “hərəkətə” köklənmiş səhnələrin, ricətlərin, daxili monoloqların,

dramatik kulminasiyaların bir-birini əvəzləməsi ritmini tam şəkildə uzlaşdıra bilməsə də, “Mobi Dik”də buna yüksək səviyyədə nail olur.

Bütün bunlardan əlavə, “Mardi” əsəri yazıldığı dövr üçün aktual olan sosial, fəlsəfi, etik problemləri ehtiva edir. Melvil səyyahların hər birinə öz nəzər nöqtələrini aydın şəkildə ifadə etməyə imkan yaradır. Öz mövqeyini isə sənətkar bəzən filosofun dili ilə ifadə edir.

“Redbern” (1849) əsəri Melvilin ilk dəniz səyahəti ilə bağlı xatirələri əsasında yazılıb. Əsərdə dənizçilik sənətinə yiyələnməsi yolunda baş qəhrəmanı Redbernin başına gələn çətinliklər əksini tapmışdır. Redbern təbiəti etibarilə romantikdir, gündəlik həyatdan baş götürüb qaçmaq üçün gəmiyə işə düzəlir, amma gəmidə xeyli problemlər ilə üzləşməli olur. Liverpul küçələrində cır-cındır içində olan ac-yalavac insanlarla qarşılaşdıqdan sonra romantik illüziyalardan əsər-əlamət qalmır, gəmini tərk etmək haqqında düşünür.

H.Melvilin “Ağ buşlat” romanı XIX əsrin 40-cı illər Amerika ədəbiyyatının tipik “dəniz” romanıdır. Burada “Amerikan dəniz nəsri”nin əsas ideya-bədii təmayülləri tamamlanır və ümumiləşdirilir[28]. Romanda avtobioqrafik elementlər olsa da, Melvil müasirlərinin əsərlərindən geniş istifadə etmiş, onlardan yalnız faktları götürməmiş, həm də təhkiyə strukturunun müəyyən elementlərini mənimsəmişdir.

“Ağ buşlat”ın strukturunda bir-biri ilə bağlı olmayan iki əsas hissə mövcuddur: hərbi gəmidə həyatın romantik təsviri və Amerika donanmasında qaydalar və sui-istifadələri tənqid edən pamflet. Süjetin əsasını avtobioqrafik materiallar təşkil edir. “Sənədlilik effekti” və “fakt effekti” XIX-XX əsrlər Amerika ədəbiyyatının ənənəvi, sınanmış üsullarından biri olmaqla, bu əsərdə də yol-səfər qeydləri və gündəliklər vasitəsilə yaradılır.

Hadisələr hərbi “Birləşmiş Ştatlar” gəmisində cərəyan edir. Yazıçı oxuculara faktoqrafik kitab kimi təqdim etsə də, öz keçmiş həyatının hadisələrindən uzaqlaşdıqda sənədli təhkiyənin üslubunu təqlid edir. Bu təqlid əsasən gündəliklərdən götürülmüş materiallara

---

[28] Ковалев, Ю.В. Американский романтизм: хронология, топография, метод / Ю.В.Ковалев. // Романтические традиции американской литературы XIX века и современность. – М.: Наука, – 1982. – с.27-54.

əsaslanır. Beləliklə, kitabda nəql olunanların tam həqiqətəuyğunluğu ilə bağlı illüziya yaradılır və Melvil əsərin strukturunda bir neçə təhkiyə xəttini inkişaf etdirir.

"Ağ buşlat" süjeti üç əsas mənbədən qaynaqlanır: Melvilin şəxsi dəniz təəssüratları və xatirələri, gəmi qeydləri, həmçinin Amerikanın dənizçi yazarlarının gündəlikləri (Eymzın, Liçin, Mak-Pallinin və başqalarının əsərləri). Tədqiqatçılar Riçard Deynanın "İki il sadə matros kimi" kitabının Melvilin "dəniz" janrına təsirini də istisna etmirlər. Melvil faktoqrafik-sənədli təfərrüatlara fəlsəfi ümumiləşdirmələr əlavə edir ki, bu da əsərə simvolik-metaforik məna qazandırır. Əsərin ən vacib metaforu başlıqda əksini tapmışdır: "Hərbi gəmi qapalı cəmiyyət kimi".

Kitabın ilk səhifələrindən gəmi materikdən qopmuş quru parçası kimi müstəqil bir dövlət təsəvvürü yaradır. Gəmi kapitanı isə həmin dövlətin mütləq hakimidir. Bu metafor epizoddan epizoda inkişaf edərək gəminin bütün fəaliyyətinə simvolik məna verir. Simvolika sənədliliyi yığcam ümumiləşdirmə səviyyəsinə qaldırır. Ağ buşlatın və yoldaşlarının taleyi tiranlığın hökm sürdüyü, azadlıq və insanlıq üzərində zorakılığın üstünlük təşkil etdiyi bir dünyada yaşayan adi insanın taleyi ilə eyniləşdirilir.

"Ağ buşlat"ın süjetqurma və epik təhkiyə tipi gələcəkdə "Mobi Dik"in strukturunu müəyyənləşdirən bədii təcrübə kimi də qiymətləndirilə bilər. Ayamalı matrosun təhkiyəsi ilə "Mobi Dik"də İsmayılın təhkiyəsi arasında xeyli oxşarlıq var. Kitabın adı metaforik-simvolik səciyyə daşıyır. Təhkiyəçinin başına gətirilən çətinliklərdəki gödəkcənin ağlığı simvolik məna kəsb edir. Ağ rəng Buşlatın digər matroslardan fərqlənməsini göstərir və ya onun taleyinin simvolik möhürüdür. Buşlat gəmidə səyahətin fəlsəfi mənasını anlayan yeganə personajdır; buna görə də komandadakı davranışı "ağ qarğa" təsəvvürü yaradır. O həm də Melvil yaradıcılığında ilk xəyalpərəst obrazlardan biridir və dənizdə özünü Nyu-York sakini kimi deyil, bir dünya vətəndaşı kimi hiss edir.

Dəniz "Ağ Buşlat"da əsas metaforlardan biridir. Dənizin təsvirində Melvil əsl novatordur. Kuperdən fərqli olaraq, Melvildə dəniz romanda yalnız fon xarakteri daşımır, əksinə, əsərdə cərəyan edən bütün hadisələrin tam hüquqlu, fəal iştirakçısıdır. Melvil yaxşı

bilirdi ki, dəniz kimi qapalı və sirli bir dünyanın təsviri bir sıra problemlərin aşkarlanmasını və təcəssümünü şərtləndirir. Müəllif faktları və simvolikanı üzvi şəkildə birləşdirmiş, bu da onun əsərlərində sintetizmin əsasını təşkil etmişdir.

Melvilin yaradıcılığında dəniz mövzusu öncə “Taypi”[29], “Omu”[30] sənədli xarakter daşımışdır. Yaradıcılığının sonrakı mərhələlərində, “Ağ Buşlat”[31] romanında müəllif hərbi gəminin məişətini işıqlandırır. “Mobi Dik”[32] romanı ilə Melvil marinistikası unikal xarakter kəsb edir. Yazıçı qətiyyətlə dəniz romanının formasını dəyişir, onu xüsusi fəlsəfi məzmunla zənginləşdirir. “Dəniz romanı”nın ideyasını və mifoloji qatını insan ruhunun yolçuluğu problemi ilə əlaqələndirir.

II fəslin ikinci paraqrafı ***“Mobi Dik” romanı: janr-üslub özünəməxsusluğu”*** adlanır. Bu paraqrafda mürəkkəb janr və süjet strukturuna malik olan, yalnız Amerikan ədəbiyyatında deyil, dünya ədəbiyyatında romantizmin və romantik simvolizmin zirvələrindən biri hesab edilən “Mobi Dik” romanının janr-üslub xüsusiyyətləri araşdırılır. Roman əvvəlcə Londonda “The Whale”, “Balina” və ya “Həmin balinanın özü” adı ilə çap olunmuş, yalnız sonralar balinanın rəngini və ləqəbini dəqiqləşdirən indiki adı ilə – “Mobi Dik” kimi təqdim edilmişdir. Bu zaman kimsə güman belə etmirdi ki, Amerikan romançılığının əsas şedevri artıq yazılmışdır[33].

Əslində əsərin strukturu daha mürəkkəbdir: dramatik formada yazılmış səhnələri, balina ovuna həsr olunmuş fraqmentlərdən ibarət traktatı və bununla bağlı mifoloji, etimoloji araşdırmaları özündə birləşdirir, eləcə də romanın strukturuna qəhrəmanların daxili

---

[29] Melville, H. Typee: A Peep at Polynesian Life. – New York: Wiley and Putnam, – 1846. – 324 p.

[30] Melville, H. Omoo: A Narrative of Adventures in the South Seas. – New York: Harper & Brothers, – 1847. – 357 p.

[31] Melville, H. White-Jacket; or, The World in a Man-of-War. – New York: Harper & Brothers, – 1850. – 384 p.

[32] Melville H. Moby-Dick; or, The Whale. – New York: Harper & Brothers, – 1851. – 635 p.

[33] Ковалев, Ю.В. Пределы вселенной Германа Мелвилла / Ю.В.Ковалев. // Г.Мелвилл. Собрание сочинений: [В трех томах]. – Ленинград: Художественная литература, – Т.1. – 1987. – с.5-30.

monoloqları kimi yazılmış bir neçə fəsil və bir neçə müstəqil novella da daxil edilmişdir. Məsələn, romanın "Taun-Xo" hissəsi ayrıca əsər kimi çap olunmuşdu.

Romanda əsas təhkiyə prinsiplərindən biri personajların fikirləri, əməlləri və mənəvi axtarışları ilə dəniz və okean stixiyası arasında assosiativ əlaqənin qurulmasıdır. Yazıçı ustalıqla təfəkkür sintetizmini nümayiş etdirir: təbiət dünyası ilə insan dünyasını vəhdət halında təqdim edir.

Romanda dəniz və hava stixiyaları arasında daxili kontrast mövcud olsa da, müəllif vurğulayır ki, bu stixiyalar vahid bütöv təşkil edir. Onlar özündə iki başlanğıcı – "qadın" və "kişi" başlanğıclarını birləşdirərək bölünməzliyi simvollaşdırır.

Romanın süjet-təhkiyəsi dənizçilik, balina, balina ovu və balina qırğını haqqında faktlar və təsvirlərlə zəngindir; hətta fəsillərin adları ("Sapand", "Göyərtədə", "Fəvvarə", "Quyruq", "Skansda", "Kvadtant", "Kayutda" və s.) bu zənginliyi əks etdirir. Lakin personajlar, təhkiyəçi və oxucular bəzən elə situasiyaya düşür ki, hadisələrin "təbii" gedişatını izah etmək çətinləşir.

H.Melvil romantik nəsrin ənənəvi janr çərçivələrini dağıdaraq, "Mobi Dik"i möhtəşəm milli epopeyaya çevirmişdir. Bəlkə də əsərin öz dövründə geniş uğur qazanmamasının səbəblərindən biri də məhz budur. Ənənəvi macəra romanlarının süjetlərinin intriqa, antaqonizm və konflikt üzərində qurulduğunu nəzərə alsaq, Melvilin əhvalatları bu şablonlara uyğun gəlmir; ən yaxşı halda onlar dəniz oçerkləri silsiləsi kimi qəbul edilə bilər. Lakin əsər oxucunu macəraların təsviri, hadisələrin ekzotikliyi və qeyri-adi situasiyaları ilə cəlb edir, çoxsaylı haşiyələr isə əsas diqqəti dağıtmır.

Romanın digər səciyyəvi üslubi-struktur xüsusiyyəti balina haqqında elmi və bioloji traktatın təqdim olunmasıdır. Təhkiyənin və süjetin axarı tez-tez mühakimələr, təsnifatlar və elmi deyimlərlə kəsilir. Romanın təhkiyə tempi, intonasiyası və ritmi sakit və mediativ xarakter daşıyır. Təhkiyəçi sanki zooloji "elmi-tədqiqat oyunu" aparır: balinaların növ təsnifatını verir, bu təsnifat isə yarı elmi, yarı kinayəli səciyyə daşıyır. Balinaların anatomik-bioloji quruluşu və davranış xüsusiyyətləri incələnir; demək olar ki, balinanın hər bir orqanına ayrıca fəsil həsr edilmişdir.

Bütün filoloji şərhlərə və tənqidi yozumlara baxmayaraq, "Mobi Dik"in bu gün də konkret janrını müəyyən etmək çətindir. Bunun əsas səbəblərindən biri bilavasitə mətnin strukturu ilə bağlıdır. Fəsillərin ardıcıllığı və forması bir-birindən fərqlənir; bəzən nəqletmə zamanı ahəng və ritm pozulur, bəzi səhnələrdə isə ətalət pozulur[34].

H.Melvil hər bir roman personajını müstəqil şəxsiyyət kimi qəbul edir və buna görə də onların hər birindən geniş və ətraflı bəhs edir. Yazıçı "həyat-ölüm" seçimləri qarşısında qalan personajların psixoloji durumunu əsaslandırmağa, onların həyat eşqini və yaşama uğrunda mübarizəsini göstərməyə çalışır. Maraqlıdır ki, insanın yaşama uğrunda mübarizəsi Amerika ədəbiyyatının H.Melvildən başlayaraq C.Londona və E.Heminqueyə qədər aparıcı mövzularından biridir.

Melvil insan tiplərini dörd amil üzrə – "Vaxt, Güc, Pul və Səbr" – fərqləndirir və təsnifləndirir. Qəhrəmanların öz dövrünün ictimai-siyasi münasibətlər sisteminə daxil edilməsi realist tipli yazıçılar üçün də səciyyəvidir; lakin Melvilin həyat konsepsiyasını və dünyagörüşünü realizm çərçivəsində səciyyələndirmək çətindir. Yazıçının dünya baxışının Avropa və Amerika romantiklərinin fəlsəfi və tarixi yanaşmaları ilə ortaq məqamları kifayət qədərdir.

"Mobi Dik"in bütövlükdə ideyası və süjet-təhkiyə aurası romantizm estetikası ilə səsləşir. Roman, Melvilin şəxsi həyat təcrübəsinin və düşüncələrinin məhsuludur. Yazıçı artıq ilk kitabı ilə sübuta yetirmişdir ki, ilkin mənbələrdəki gerçəkliyə sadiq qalır. Romanda romantik eposun cizgiləri özünü büruzə verir və əksər tədqiqatçılar "Mobi Dik"ə romantik epos kimi yanaşırlar. Melvilin məktublarından məlum olur ki, əvvəlcə o, "Mobi Dik"i "Ağ Buşlat"ın davamı kimi yazmaq və hadisələri hərbi gəmidə yox, balina ovlayan gəmidə cərəyan etdirmək niyyətində imiş.

Romantizm üçün faciənin kosmik və sonsuz ölçüdə təqdim olunması səciyyəvidir. Melvil digər romantiklərdən fərqli olaraq, Ahavı simvolik ümumiləşdirmə səviyyəsinə qaldırır. Ahava yalnız

---

[34] Nəzirli, K. Herman Melvill və onun "Mobi Dik, yaxud Ağ balina" romanı / K.Nəzirli. // H.Melvill. Mobi Dik, yaxud Ağ balina. – Bakı: "Şərq-Qərb", – 2011. – s.5-15.

mücərrəd idraki seçimi ilə deyil, konkret psixoloji ənənə və sosial mühitin onu əzablara məhkum etməsi ilə bağlıdır.

"Mobi Dik" sosial romanın elementlərini də özündə ehtiva edir. Roman Melvil Amerikasının metaforudur; gəmi ekipajının çoxmillətli tərkibi isə Amerikanın formalaşma prosesini müxtəlif etnosların "əridiyi" bir qazan kimi simvollaşdırır.

Süjet baxımından "Mobi Dik" ilk növbədə "dəniz" romanı və "balina ovu" haqqında əsər kimi qurulmuşdur. Ağ Balina yalnız canlı varlıq deyil, həm də əfsanəvi, mifik obrazdır. Müəllifin balina ilə bağlı bu qədər geniş ensiklopedik biliklərə malik olması isə heyrət doğurur.

Dissertasiyanın III fəsil **"Mobi Dik" romanının mifopoetikası"** adlanır və ***"Mobi Dik" romanı fəlsəfi pritça kimi"*** adlı birinci paraqrafda göstərilir ki, Amerika ədəbiyyatı üçün təhkiyənin şərti-simvolik ümumiləşdirilmiş formalarına müraciət ənənəvi haldır. Bu formalar arasında mif və pritça mühüm yer tutur. Mif və pritça daxilən bir-birilə yaxın olan epik təhkiyə formalarıdır. Pritça didaktik yönlü janr kimi mifin əsasında təşəkkül tapmışdır. Mif isə insanın mənəvi seçimi problemlərindən bəhs edərkən özünün çoxmənalılığını itirmiş ictimai əxlaq ideyalarının daşıyıcısına çevrilir. Mif və pritça bədii obrazlılıq vasitələrindən istifadə və struktur baxımından da bir-birinə çox yaxındır.

"Mobi Dik" mürəkkəb, qarışıq tipli janr sintezinə malikdir. Tədqiqatçıların qənaətinə görə, bu fəlsəfi romandır. Onun alleqorik-pritça mahiyyəti gah "açıq", gah da "gizli" şəkildə ifadə olunmuşdur.

Melvil estetikasında mif və pritça arasında münasibətlər kifayət qədər mürəkkəbdir. Bu mürəkkəblik müxtəlif struktur səviyyələrində özünü göstərir. Burada həm qədim Misir və yəhudi mifoloji modellərinin, həm də yunan miflərinin, xüsusən Prometey mifinin izlərini aşkarlamaq mümkündür. Bir çox tədqiqatçı Freydin psixoanaliz nəzəriyyəsini və ya Yunqun arxetip konsepsiyasını mətni təhlil etmək üçün tətbiq etmişdir.

Dənizdə balinanın izlənilməsi, təqib edilməsi, öldürülməsi və şaqqalanması silsiləsi hər dəfə dənizçilərin simvolik "saflaşması" aktı ilə tamamlanır. Melvilin pritça təfəkkürü metaforların müstəqil məkan sırasına çevrilməsini şərtləndirmişdir. Bununla da bütün mətn

öz məkanını yaradır və süjet gerçəkliyinin genişlənməsi nəticəsində "mifik" kosmosa çevrilir. "Mobi Dik"də balina ovu Allaha qarşı qiyam motivi ilə mürəkkəbləşir. Bu motiv romanın əsas metaforik xəttini təşkil edir. Gəmi heyəti üçün Ağ Balina mifoloji əjdaha obrazına malikdir. Onun ölümü isə yeni həyatın başlanğıcını simvolizə edir.

"Mobi Dik"də əsas konfliktin pritçavari həlli əsərin obraz-personaj sisteminə də yansıyır. Burada bütün bəşər tarixi bir möhtəşəm epik fabulaya yerləşdirilmişdir. Ölüm insan varlığının total fəlsəfi təftiş şərti kimi təqdim olunur. Ölüm motivlərinin və ifadə formalarının variativliyi də bundan irəli gəlir. Ölüm yalnız süjet hadisəsi deyil, həm də dünya obrazının vacib elementidir.

H.Melvil kinayə, qroteks və süjetin parabollaşdırılması vasitəsilə hadisələri mifik strukturlara uyğunlaşdırır. O, obrazların arxetipik köklərini ümumiləşdirir ki, bu da pritçaya xas olan xüsusiyyətdir. Romanda elə situasiyalar var ki, parabola-pritça formasını alır və mətnaltı simvolikaya malik olan məcazi situasiyaya çevrilir. "Mobi Dik"də parabolalar çoxsaylıdır və bədii ifadə baxımından müxtəlifdir.

"Mobi Dik, yaxud Ağ Balina" romanı H.Melvil yaradıcılığının zirvəsi və Amerikan romantizminin önəmli kitabıdır. Romanda dərin mifoloji arxetiplər və zəngin kulturoloji mətnaltı informasiya mövcuddur. Amerikanın əsas milli mifologemləri burada əksini tapmışdır. Romanın əhəmiyyəti ondadır ki, o, XIX əsr Amerikasının mifopoetik mənzərəsini təqdim edir. Ona görə də C.Olson Melvili hər bir "amerikalının" düşüncələrinin və hisslərinin ən dərin qatlarını ortaya qoyan ilkin amerikan mifinin müəllifi hesab edir.

III fəslin ***"Dəniz" və "gəmi" mifologemləri"*** adlanan ikinci paraqrafında qeyd olunur ki, "Mobi Dik"in simvolika sistemini formalaşdıran əsas mənbələrdən biri Melvilin güclü təxəyyülü, macəra dolu həyat təcrübəsi və mənsub olduğu sosial-siyasi gerçəklik idi.

Amerika romantizmini, xüsusən H.Melvilin romantizmini şərtləndirən ən mühüm amillərdən biri və birincisi dəniz (okean) obrazıdır. XIX əsr ingilis və Amerika poeziyasında dəniz obrazının dominantlığı dediklərimizin təsdiqi ola bilər. Bu poetik örnəklərdə

dəniz ənginliyin və qorxunc müdhişliyin rəmzidir, kosmosun və xaosun vəhdətidir. "Dəniz həm qorxulu, amansız və qəddardır, həm də möhtəşəm və qüdrətlidir, fantastik gözəllik mənbəyidir: *"Dəniz ancaq ona yad olan insana düşmən deyil, o həm də öz övladlarına amansızdır. O, öz yaratdığına qəddarlıqla, həm də qonaqlarının boğazını üzən iranlı ağanın məkrini də ötüb keçir. Təsadüfən öz doğma balalarını boğa bilən, cəngəllikdə vurnuxan yırtıcı dişi şir kimi, dəniz ən nəhəng balinaları da qayalar üzərinə atır və onları dağılmış gəmi qalıqları yanında sərilmiş qoyur. Dəniz mərhəmət bilmir, öz hakimiyyətindən başqa hakimiyyət tanımır. Görün, dəniz nə qədər amansızdır. Ən dəhşətli canlılar ilahi göylüyün altında satqıncasına gizlənərək gözəgörünmədən su altında üzürlər. Bəzən də onun sakinlərindən ən qorxulusu, məsələn, akula da necə gözəl olur. Dənizdə baş verən qaniçənlik haqqında da düşünün. Axı onun sakinlərinin hamısı bir-birini ovlayır və dünya yaranandan onlar arasında əbədi müharibə gedir"*[35].

"Mobi Dik"də okean obrazı simvol və metafor səviyyəsinə qədər qalxır. Okean romanda xaos simvollarından biridir. O, həm planetin, həm də insan ruhunun qaranlıq tərəfini simvolizə edir. Melvil insan psixikasının dərinliklərini yalnız dağıdıcı və xaotik deyil, həm də yaradıcı enerjinin mənbəyi kimi görürdü.

Xaos bir çox sirləri açmağa və yeni bilgiləri aşkar etməyə imkan verir. Melvildə okean fərqli, təhlükəli bir dünyadır. O, kainatın qaranlıq tərəfini və insanın təhtəlşüurunu təcəssüm etdirir. Okean yeganə məkandır ki, orada həqiqətə çatmaq mümkündür. İsmayıl okeanda dənizçini gözləyən həm real, həm də metafizik təhlükələrdən bəhs edir.

Fikrimizcə, Melvil dəniz obrazının bədii imkanlarından daim metaforik bənzətmələr və poetik-simvolik ümumiləşdirmələr üçün istifadə edir. Romanda okean mütləq "hüdudsuz, azad təbiət hadisəsinin simvolu"dur. Okean kainatın əsasıdır. Onun sərtliyi və qeyri-müəyyənliyi müəyyən mənada insanın daxili dünyası və xarakteri ilə müqayisə olunur. Romantik yazıçı dənizi insaniləşdirir və eyni zamanda insanda görmək istədiklərini dənizdə axtarır.

---

[35] Melvill, H. Mobi Dik, yaxud Ağ Balina / H.Melvill. İngiliscədən tərcümə edəni və ön sözün müəllifi Kamran Nəzərli. – Bakı: "Şərq-Qərb", – 2011. – s.5.

Dəniz məkanı əsərin mühüm xronotoplarından birini təşkil edir. Hətta Melvilin təhkiyə manerası okean səthinin hərəkətini xatırladır. Dəniz metafor kimi fərqli mənalar kəsb edir və yazıçı onu hadisələrin tamhüquqlu iştirakçısına çevirir. Melvil üçün dəniz canlı orqanizm kimi dünya vəhdətinin mücəssəməsidir. Rus tədqiqatçısı V.M.Tolmaçova görə, dəniz stixiyası *"insanın davamı, onun sivilizasiyasından və özündən faciəli yadlaşmasının obrazıdır"*.

Melvilə görə, dəniz insan üzərində hüdudsuz hökmranlığa malikdir. Romanda dəniz obrazı polisemantikdir və yalnız dixotomiyalar əsasında onun mahiyyəti açıla bilər. "Od-su" ünsürlərinin qarşıdurmasını Ahav – Ağ Balina qarşıdurması kimi səciyyələndirmək olar. Kapitan od elementini simvolizə edirsə, Mobi Dik mahiyyətcə su/okean mifologemini ifadə edir.

"Okean – səma" dixotomiyası romanda parlaq şəkildə özünü göstərir. "Okean" kişi başlanğıcını, "səma" isə qadın başlanğıcını simvolizə edir. Əsərdə "torpaq – su" semiotik qarşıdurması da aydın sezilir. Okean/dəniz isə başlanğıcın, vahid təbiət ruhunun təcəssümü kimi metaforik anlam kəsb edir.

Təsadüfü deyil ki, romanın ilk səhifəsindən əsərin personajı İsmayıl ömründə birinci dəfə dənizi görən, sonsuzluğundan heyrətlənən insanın mistik ovqatı haqqında düşünür. O, dənizin müqəddəsliyini qeyd edir və xüsusi vurğulayır ki, antik mədəniyyətdə dəniz ilahi başlanğıca malik idi: *"Why is almost every robus healthy boy with a robust healthy soul in him? At some time or other crazy to go to sea? Why upon your first voyage as a passenger? Did you your self feel such a mystical vibration when first told that you and your ship were now out sight of land? Why did the old Persians hold the sea holy?. Why did Greeks give it a separate deity? And own brother of Jove? Surely all this is not without meaning"*[36].

Ahav romanın süjet fakturasına sirli, mistik bir obraz kimi daxil olur. *"O, güclü bir ruhdur, dəyanətli, dözümlü, hətta bəzən xeyirxah, lakin ölüm qoxulu məqsədiylə, hər şeyə kor və olan fanatikliyi, öz düşüncəsində bəşəri şərə, zülmə qarşı dayanan və onun nəyin bahasına olursa olsun (hətta öz ölümü bahasına) məhv*

[36] Melvile, H. Moby Dick. – Wordsworth Editions Limited, – 2002. – p.4

*etməyə hazır olan dəlidir. Onun üçün bəşəri şər Mobi Dikin təcəssümündə idi və onu məhv etməklə bütün mənavi və fiziki iztirablarına son qoyacağına inanırdı"*[37].

Melvildə insanlar daima mifoloji qəhrəmanlarla eyniləşdirilir. Məsələn, bufetçi Əyyub peyğəmbərlə, harpuner Deqqu isə Aqasferlə müqayisə edilir. Eyni zamanda, mifoloji qəhrəmanlar müasir insanlar səviyyəsinə endirilir.

Ənənəvi eposda olduğu kimi, "Mobi Dik"də kollektiv qəhrəman tipini özündə ehtiva edən epik qəhrəman tipi çıxış edir. Balina ovunun qəhrəmanlığı Melvili imkan verir ki, personajlarını əjdaha ilə əlbəyaxa savaşa girən və onun parçalarından mədəni dünya yaradan mifoloji mədəni qəhrəmanlar tipinə aid etsin.

"Pekod" gəmisi qeyri-adi, sirli və mistik bir gəmidir. Burada baş verən hər bir hadisə ibrətli həyat dərsi kimidir və alleqorik-simvolik məna daşıyır. "Pekod" özü dövləti simvolizə edir. "Gəmi–dövlət" metaforu isə orta əsrlər ədəbiyyatında və ezoterik təlimlərdə işlək məcazlardan biridir. *"Melvil üçün əsl həyat gəmidən başlayır; o gəmidən ki, sonu görünməyən açıq dənizə səyahətə çıxır. Burada metaforik bir əlaqə var: dünya və gəmi əlaqəsi. Nəhayət, real gəmi əlaqəsi. Nəhayət, real gəmi təsvir olunur. "Pekod" adlanan gəminin heyəti müxtəlif millətlərin və irqlərin nümayəndələridir; obrazlı şəkildə desək, simvolik Amerikadır, hətta onu rəmzi mənada bütöv bir bəşəriyyət kimi də götürmək olar"*[38].

Melvil üçün ideal Ali Həqiqət yoludur. Roman "güzgü" kimidir – oxşar obrazlar sanki çoxalır: qarşıya çıxan gəmilərin hər biri qəhrəmanların həqiqət axtarışı yolunda "günahı" kimi təsəvvür olunur. Pipin və Ahavın tarixi iki qütbü ifadə edir.

Dissertasiyanın **"Nəticə"** hissəsində aşağıdakı elmi-nəzəri müddəalar ümumiləşdirilmişdir:

1. ABŞ ədəbiyyatında dəniz mövzusunun və dəniz romanı janrının təşəkkülü ölkənin coğrafi mövqeyi, dənizçilik və ticarət fəaliyyəti, siyasi-tarixi proseslər və iqtisadi maraqlarla birbaşa bağlı

[37] Mürsəlova, P. Herman Melvilin "Mobi Dik" əsərində həyat fəlsəfəsi: suallar və cavablar // – Bakı: AMEA, Filologiya məsələləri, – 2011. № 3. – s.290.
[38] Nəzirli, K. Herman Melvil və onun "Mobi Dik, yaxud Ağ balina" romanı // Melvil H. Mobi Dik, yaxud Ağ balina. – Bakı: Şərq–Qərb, – 2011. – s.12.

olmuşdur. Bu amillər yazıçılara dəniz həyatının və okean səyahətlərinin bədii təsviri üçün zəngin material bazası təmin etmişdir.

2. Dəniz mövzusunun funksionallığı milli mentallığın ifadəsi kimi çıxış etmiş, ABŞ-ın milli kimliyi, azadlıq ideyası, fərdi iradə və mədəni dəyərlər dəniz romanının süjeti və obrazları vasitəsilə konseptuallaşdırılmışdır.

3. Dəniz romanı ABŞ-ın dünya miqyasında siyasi və ideoloji mövqeyinin bədii gerçəkləşməsi funksiyasını daşıyır; okean səyahətləri milli missiya və tarixi məsuliyyət diskursu ilə təqdim olunur, ekspansionist ideyaların və dəniz hökmranlığının poetik təzahürüdür.

4. Anqlosakson folkloru və mifologiyasında dəniz insanın ətraf mühitlə qarşılıqlı münasibətinin əsas modellərindən biri kimi çıxış edir; ilkin mərhələdə təhlükəli və düşmən məkan olan dəniz, sonradan insan tərəfindən mənimsənilən, mədəni məkana çevrilən stixiya kimi təsvir olunur.

5. Balina ovu, piratlıqla mübarizə və uzaq dəniz səfərləri yeni tip ədəbi qəhrəmanın formalaşmasına şərait yaratmışdır; dənizçilərin bioqrafik və gündəlik nəsri isə okean stixiyasının obrazlı və faktoloji mənimsənilməsində əsas mənbə rolunu oynamışdır.

6. XIX əsr romantik ədəbiyyatında okean stixiyası ekspressivlik qazanaraq azadlıq, fərdi mübarizə və insan iradəsinin simvoluna çevrilmiş, tiranlığa qarşı duruşu və daxili qüvvəni ifadə etmişdir.

7. XIX əsrin ikinci yarısından dəniz mövzusu epik janrın yeni forması olan dəniz romanının yaranmasına səbəb olmuş, gəmi həm yaşayış və xidmət məkanı, həm də cəmiyyətin simvolik modeli kimi təqdim edilmiş, peşəkar dənizçi obrazı süjetin aparıcı fiquruna çevrilmişdir.

8. H.Melvilin “Mobi Dik” romanı ABŞ romantizminin unikal bədii hadisəsidir; əsər arxaik mifoloji arxetipləri, zəngin kulturoloji qatları və milli mifologemləri özündə birləşdirərək Amerika mədəniyyətinin və ideoloji düşüncəsinin dərin bədii modelini yaradır.

9. Romanda mifoloji-poetik başlanğıc bir neçə səviyyədə reallaşır: a) miflər İnsan və Təbiət arasında substansional

qarşıdurmanı göstərir; b) Mobi Dik "alt dünya"nın zoomorfik təcəssümü kimi dual kosmoloji strukturu formalaşdırır; c) "Əjdaha ilə mübarizə" arxetipi puritan ideyasını və amerikan messianizmini simvolizə edir; d) obrazlar və simvollar Şimali Amerika mədəniyyətinin vahid paradiqmasında milli ideologemləri daşıyır.

10. "Dəniz" mövzusu XIX-XX əsr Amerika nəsrində, xüsusən romançılıqda janrın yenilənməsinə, poetik strukturların transformasiyasına və personaj sisteminin zənginləşməsinə güclü təsir göstərmişdir; dəniz romanı macəra və hərbi süjet elementləri ilə yanaşı, dərin sosial-fəlsəfi və mifoloji məzmunu özündə birləşdirən dinamik və plastiki bədii sistem kimi formalaşmışdır.

***Dissertasiya materialları üzrə aşağıdakı elmi əsərlər çap edilmişdir:***

1. Eyyubova, Z. Dəniz mövzusunun Amerika ədəbi fikrinin inkişafında rolu // "İnformasiya, elm, texnologiya və universitet perspektivləri" mövzusunda doktorantların və gənc tədqiqatçıların onlayn Respublika elmi konfransı". – Lənkəran, – 18 dekabr, – 2020, – s.175-176.
2. Eyyubova, Z. Herman Melvillin erkən yaradıcılığında dəniz mövzusu // – Bakı: Azərbaycan Dillər Universiteti, Elmi xəbərlər, – 2021. №4, – s.58-61.
3. Eyyubova, Z. Herman Melvill romantik sənətkar kimi // "Çağdaş dönəmdə Türk dünyasının aktual problemləri" adlı onlayn Respublika elmi konfransının materialları, – Lənkəran, – 24 dekabr, – 2021, – s.156-157.
4. Eyyubova, Z. Melville: Romantic Irony and the Problem of Personality. Based on the Novel "Pierre" // 2nd International Cappadocia Scientific Research Congress, – Cappadocia-Nevşehir, – June 17-19, – 2022, – p.786.
5. Eyyubova, Z. "Moby Dick" as a Mythologism and a Novel-Parable // Видавничий дім: «Гельветика», Вчені записки ТНУ імені В.І.Вернадського. Серія: Філологія. Журналістика, – 2022. Том 33 (72), № 3, – p.261-265.

6. Eyyubova, Z. Melvillin “Omu” və “Mardi” əsərlərində “Polineziya” mövzusu // – Bakı: Azərbaycan Universiteti, İpək Yolu, – 2022. №4, – s.97-101.
7. Eyyubova, Z. Herman Melvillin hekayələri // – Gəncə: Gəncə Dövlət Universiteti, Elmi Xəbərlər Jurnalı. Fundamental, humanitar və təbiət elmləri seriyası, – 2023. №2, – s.286-289.
8. Eyyubova, Z. “Mobi Dik” Amerikan ədəbiyyatında simvolizmin daşıyıcısı kimi // – Bakı: Bakı Slavyan Universiteti, Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, – 2023. №3, – s.122-124.
9. Eyyubova, Z. Mythopoetics of Melville’s Novel “Moby Dick” // – France, Lyon, Journal of science, – 2023. №44, – p.12-14.
10. Eyyubova, Z. The Image of the Sea in the Works of Herman Melville and Other American Writers // – Czech Republic: Praha, Sciences of Europe, – 2024. №145, – p.53-55.
11. Eyyubova, Z. The Concept of Good and Evil in the Novel “Moby Dick” // Магнитогорский государственный технический университет им. Г.И.Носова» “Мировая литература глазами современной молодежи. цифровая эпоха”. Сборник научных трудов XI Международной Молодежной научно-практической конференции. – Магнитогорск, – 22-23 октября, – 2025, – p.229-232.

Dissertasiyanın müdafiəsi 12 iyun 2026-cı il tarixində saat 11:00-da Azərbaycan Dillər Universiteti nəzdində fəaliyyət göstərən FD 2.12 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1014, Bakı şəhəri, Rəşid Behbudov küçəsi, 134.

Dissertasiya ilə Azərbaycan Dillər Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Dillər Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 12 may 2026-cı il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 08.05.2026

Kağızın formatı: 60x84 1/16

Həcm: 44148 işarə

Tiraj: 100